**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# QİDA SƏNAYESİ MÜƏSSİSƏLƏRİNDƏ RƏQABƏTQABİLİYYƏTLİLİYİNİN TƏMİN OLUNMASININ QİYMƏT MEXANİZMİ VƏ ONUN TƏKMİLLƏŞDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ

İxtisas: 5311.01 - Müəssisənin təşkili və idarə edilməsi

Elm sahəsi: İqtisad elmləri

**İddiaçı : Fidan Məhiş qızı Səfərova**

Fəlsəfə doktoru alimlik dərəcəsi almaq üçün

təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**BAKI-2022**

Dissertasiya işi Azərbaycan Dövlət İqtisad Universitetinin "Sosial inkişaf iqtisadiyyatı və qiymətləndirmə" kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:** iqtisad elmləri doktoru, professor
**Xanhüseyn Hüseynağa oğlu Kazımlı**

**Rəsmi opponentlər:** iqtisad elmləri doktoru, professor
**İslam Hacı oğlu İbrahimov**

iqtisad elmləri doktoru, professor
**Qəzənfər Salman oğlu Süleymanov**

İqtisad üzrə fəlsəfə doktoru
**Namiq Əlövsət oğlu Şalbuzov**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin nəzdində fəaliyyət göstərən FD 2.22 Dissertasiya şurası

Dissertasiya şurasının sədri: ________________ AMEA-nın müxbir üzvü, i.e.d., professor
**Qorxmaz Cahangir oğlu İmanov**

Dissertasiya şurasının
elmi katibi: ________________ iqtisad üzrə fəlsəfə doktoru, dosent
**İlham Samil oğlu Rüstəmov**

Elmi seminarın sədri: ________________ iqtisad üzrə elmlər doktoru, professor
**Qənimət Əsəd oğlu Səfərov**

İMZANI TƏSDİQ EDİRƏM
ADNSU-nun Elmi katibi,
dosent N.Əliyeva

# İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Respublikamızın qida məhsulları istehsalı sektoruna qiymət amillərinin təsirinin öyrənilməsi və qiymətləndirilməsi ölkədə həyata keçirilən iqtisadi siyasətin vacib aspektlərindən biridir. Qida sənayesi müəssisələrinin inkişaf səviyyəsinin müəyyənləşdirilməsinə təsir göstərən əsas parametrlər məhsulların rəqabət qabiliyyətinin artırılması yolu ilə daxili və xarici bazarların tələblərinə uyğun olaraq məhsul istehsalını artırmağa birbaşa xidmət edən effektiv satış siyasətinin formalaşdırılmasıdır.

Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də[1] qarşıdakı onillik ərzində ölkənin sosial-iqtisadi inkişafına dair reallaşdırılmalı olan Milli Prioritetlərdən biri dayanıqlı artan rəqabətqabiliyyətli iqtisadiyyatın qurulmasıdır. Uzunmüddətli dövrdə iqtisadi artımın sağlam və tarazlı olması ölkənin davamlı inkişafına möhkəm zəmin yaratdığı üçün bu prioritetin effektiv reallaşdırılması məqsədilə davamlı və yüksək iqtisadi artıma nail olunması, eləcə də daxili və xarici təsirlərə dayanıqlığın təmin edilməsi nəzərdə tutulur. İqtisadi artımın davamlılığına, milli iqtisadiyyatın dərindən şaxələndirilməsinə, mal və xidmətlər üzrə ixrac potensialından tam istifadəyə nail olunmasında neft-qaz sektoru sosial-iqtisadi inkişafın əsas hərəkətverici qüvvələrindən biri olsa da, qeyri-neft sənayesi inkişafın başlıca dayağına çevrilməlidir. Yalnız şaxələnmiş və rəqabətə davamlı iqtisadiyyat sayəsində dayanıqlığın təmin edilməsi üçün iqtisadiyyatda qeyri-neft sektorunun payının artımına nail olmaq lazımdır.

2030-cu ilə qədərki sosial-iqtisadi inkişafla bağlı Milli Prioritetlərdə qeyd olunduğu kimi, makroiqtisadi sabitliyin başlıca meyarı olaraq qiymətlərin aşağı və stabil olmasının təmin edilməsi ölkə iqtisadiyyatında gözləntiləri yaxşılaşdırmağa və investisiyaları artırmağa imkan verəcəkdir.

Heç kimə sirr deyil ki, qiymət rəqabət mübarizəsinin başlıca vasitəsidir. Əlverişli rəqabət şəraitində qiymət iqtisadi proseslərin

---

[1] *"Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə təsdiq edilmişdir.*

tənzimlənməsi mexanizmi olaraq çıxış edir: istehsalçı ilə istehlakçı arasında onları pul ödənişi qabiliyyəti ilə əlaqələndirərək tələb və təklifin balanslaşdırılmasına nail olur. Həmçinin, təkmil rəqabət bazarında qiymət birbaşa stimullaşdırıcı təsirə malik olur ki, bunun da səviyyəsi daha çox qənaətcil istehsal üsullarının və mövcud resurslardan daha tam istifadənin tətbiqinə dəstək olur.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Azərbaycan Respublikasında antiinflyasiya tədbirlərinin gücləndirilməsi ilə bağlı təxirəsalınmaz tədbirlər haqqında" 21 fevral 2022-ci il tarixli sərəncamında qeyd edilir ki, ölkədə inflyasiyanın xərc amillərinin qiymətlərə ötürülməsinin artdığı, idxal edilən malların bahalaşaraq qiymət artımını sürətləndirdiyi indiki şəraitdə makroiqtisadi sabitliyin qorunması, dünya ərzaq qiymətlərinin ölkədaxili istehlak bazarına qiymət təzyiqinin azaldılması və əhalinin real gəlirləri ilə alıcılıq qabiliyyəti arasındakı nisbətinin inflyasiya artımı şəraitində qorunması vacibdir. Azərbaycan dövləti 2022-ci ildə ölkədə qiymətlərin yuxarı səviyyədə qalmasının qarşısını almaq üçün qiymətartırıcı amilləri sabitləşdirməyi, eyni zamanda zəruri gündəlik tələbat malları üzrə ölkədaxili istehsalın təşviqi istiqamətində təxirəsalınmaz tədbirlərin həyata keçirilməsini nəzərdə tutur[2].

Ölkə Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasına əsasən Azərbaycanda qiymətlərin bazar prinsiplərinə uyğun formalaşmasını əsas tutmaqla inflyasiyanın əhalinin işgüzar fəallığına və sosial rifahına təsirlərini minimal səviyyəyə endirmək məqsədilə hökumət tərəfindən bir sıra tədbirlər nəzərdə tutulmuşdur. Həmin tədbirlərdən biri kimi ölkədaxili bazarda qiymət manipulyasiyası üzərində nəzarəti gücləndirmək istiqamətində Azərbaycanda sağlam rəqabət mühitinin gücləndirilməsinə üstünlük verilmişdir. Bu isə inhisarçılıq, bazarların bölünməsi, razılaşdırılmış qiymətlərin tətbiqi, eləcə də qiymət manipulyasiyası kimi halların qarşısının alınmasını əhatə edir[3].

Dissertasiya işi qida sənayesi müəssisələrinin nümunəsində Azərbaycan iqtisadiyyatının rəqabət qabiliyyətinin mövcud vəziyyətinin təhlilinə və inkişafına həsr edilmişdir. İşin aktuallığı onunla müəyyən edilir

---

[2] *"Azərbaycan Respublikasında antiinflyasiya tədbirlərinin gücləndirilməsi ilə bağlı təxirəsalınmaz tədbirlər haqqında" AR Nazirlər Kabinetinin Sərəncamı.Bakı ş. 21 fevral, 2022-ci il.*

[3] *"Azərbaycan Respublikasında antiinflyasiya tədbirlərinin gücləndirilməsi ilə bağlı təxirəsalınmaz tədbirlər haqqında" AR Nazirlər Kabinetinin Sərəncamı.Bakı ş. 21 fevral, 2022-ci il.*

ki, iqtisadiyyatın rəqabətqabiliyyətliliyinin təmin olunmasında qiymət mexanizminin təkmilləşdirilməsi üzrə tövsiyələrin hazırlanması dövlətin sosial-iqtisadi inkişafının tələblərinə cavab verən iqtisadi artıma kömək edir. Praktiki olaraq hər bir şirkət gec və ya tez rəqabət qabiliyyətinin artırılması problemi ilə qarşılaşırlar.

Ölkənin sənaye, o cümlədən qida sənayesi müəssisələrinin tənzimlənməsi təcrübəsində rəqabətqabiliyyətliliyinin təmin olunmasının qiymət mexanizmi zəif öyrənilmişdir. Bu, iş ənənələrinin "satıcı bazarı" mərhələsində qorunması ilə bağlıdır. Lakin bu yanaşma bazarın müasir inkişaf mərhələsinin tələblərinə cavab vermir. Təsərrüfat subyektlərinin və onların məhsullarının rəqabətqabiliyyətinin qiymətləndirilməsi sahibkarlıq və idarəetmə praktikasında vacib məsələdir.

İqtisadiyyatın rəqabətqabiliyyətinin yüksəldilməsi problemlərinin öyrənilməsinə çoxsaylı tədqiqat işləri həsr edilmişdir. Azərbaycan və xarici alimlər qiymət və rəqabətqabiliyyətlilik nəzəriyyəsinin inkişafına mühüm töhfə vermişlər.

Təkmil rəqabətin ilk konsepsiyalarından biri Adam Smit tərəfindən "Xalqların sərvətinin təbiətinin və səbəbinin tədqiqi" (1776) kitabında hazırlanmışdır. Xüsusi maraqları və iqtisadi səmərəliliyi rəqabətin balanslaşdırmalı olduğunu iddia edən A.Smit rəqabəti bazarın "görünməz əli", yəni avtomatik olaraq balans mexanizmi ilə müəyyən etdi və qiymət rəqabəti mexanizmini inkişaf etdirdi[4].

D.Rikardo təkmil rəqabətin nəzəri modelini yaratmış, "Siyasi iqtisadiyyatın prinsipləri" (1817) əsərində müqayisəli üstünlük nəzəriyyəsi şəklində bu şərhi təkmilləşdirmişdir[5].

Görkəmli iqtisadçı M.Porter “Rəqabət üstünlüyü: yüksək nəticələrə və onun davamlılığını təmin etməyə necə nail olmaq”[6] əsərində müxtəlif müəssisələrin (firma və şirkətlərin) istehsal etdiyi əmtəələrin (iş və xidmətlərin) rəqabətqabiliyyətliliyini, “Beynəlxalq rəqabət”[7] adlı kitabında hər hansı bir ölkənin beynəlxalq rəqabətqabiliyyətliliyi amillərini

---

[4] *Смит, А. Исследование о природе и причинах богатства народов. М.: ЭКСМО. –2009. –с. 956, - с.112.*

[5] *Enright, M.J. Why Clusters are theWay to Win the Game? // Word Link. – 1992. - №5. - P. 24-25.*

[6] *Портер, М. Конкурентное преимущество: kak достичь высокого результата и обеспечить его устойчивость. - М.:Эконом. наука, –2005. – 225 с.*

[7] *Портер, М. Международная конкуренция. М.Международные отношения. –1993.*

(istehsal amilləri, investisiya, innovasiya), "Rəqabət strategiyası: sahə və rəqiblərin təhlili metodları"[8] adlı əsərində sahənin rəqabət qabiliyyətinin qiymətləndirilməsi məsələlərini araşdırmışdır.

Müasir dövrdə müəssisələrdə, o cümlədən aqrar-ərzaq və emal sənayesi müəssisələrində rəqabət qabiliyyəti və qiymət mexanizminin müxtəlif aspektləri yerli alimlərdən V.H.Abbasovun "Aqrar-sənaye kompleksində sahələrarası əlaqələrin tənzimlənməsinin iqtisadi problemləri"[9] və R.Z.Hüseynin "Azərbaycan Respublikasında bitkiçilik məhsullarının rəqabətqabiliyyətliliyinin artırılması problemləri"[10] adlı iqtisad elmləri doktorluğu, A.H.Əliyevanın "Azərbaycan Respublikasında ərzaq bazarının transformasiya problemləri"[11] və N.Kamalovun "Azərbaycan Respublikasında yeyinti məhulları bazarında marketinqin təşkilinin təkmilləşdirilməsi istiqamətləri"[12] adlı iqtisad üzrə fəlsəfə doktorluğu dissertasiyalarında, H.A.Xəlilovun "Azərbaycanda aqrar istehsalın artım templəri: dinamikasının xüsusiyyətləri və resurs amillərinin rolu"[13], İ.H.İbrahimovun "Azərbaycanda kənd təsərrüfatı ilə yeyinti sənayesinin inteqrasiyasının inkişaf perspektivləri"[14], İ.Alıyev və İ.Soltanlının "Aqrar sahənin modernləşməsi və rəqabətqabiliyyətliliyinin təmin olunması problemləri"[15] adlı monoqrafiyalarında araşdırılmışdır.

---

[8] *Портер, М. Конкурентная стратегия: методика анализа отраслей и конкурентов. Пер. с англ. М.Альпина. Бизнес букс. –2005, –454 с.*

[9] *Abbasov, V.H. "Aqrar-sənaye kompleksində sahələrarası əlaqələrin tənzimlənməsinin iqtisadi problemləri" i.e.d. Alimlik dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı. –2012, – 29 s.*

[10] *Hüseyn, R.Z. Azərbaycan Respublikasında bitkiçilik məhsullarının rəqabətqabiliyyətliliyinin artırılması problemləri. i.e.d. alimlik dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı. –2017, – 34 s.*

[11] *Əliyeva, A.H. Azərbaycan Respublikasında ərzaq bazarının transformasiya problemləri. İqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya. – Bakı: – 2013, –154 s.*

[12] *Kamalov, N. "Azərbaycan Respublikasında yeyinti Məhulları Bazarında Marketinqin Təşkilinin Təkmilləşdirilməsi İstiqamətləri" İqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya., –Bakü, –2011.*

[13] *Xəlilov H.A. Azərbaycanda aqrar istehsalın artım templəri: dinamikasının xüsusiyyətləri və resurs amillərinin rolu. "Kənd təsərrüfatının iqtisadiyyatı" elmi-praktik jurnalı, 2020 №1. https://agroeconomics.az/az/article/2/azerbaycanda-aqrar-istehsalin-artim-templeri-dinam/*

[14] *İbrahimov İ.H. Azərbaycanda kənd təsərrüfatı ilə yeyinti sənayesinin inteqrasiyasının inkişaf perspektivləri. // Agricultural Economics * Kənd təsərrüfatının iqtisadiyyatı * Экономика сельского хозяйства - 2021, № 3 (37), s. 82-92.*

[15] *Alıyev, İ. Aqrar sahənin modernləşməsi və rəqabət qabiliyyətliliyinin təmin olunması problemləri / İ.Alıyev, İ.Soltanlı, –Bakı: "Avropa" nəşriyyatı, –2017, –428 s.*

Azərbaycanda ərzaq təhlükəsizliyinin təmin edilməsi ilə bağlı A.F. Abbasovun «Ərzaq təhlükəsizliyi» [16], B.X. Ataşovun "Ərzaq təhlükəsizliyinin aktual problemləri"[17], E.A. Quliyevin "Qlobal ərzaq təhlükəsizliyi: reallıqlar, çağırışlar və perspektivlər", "Etibarlı ərzaq təminatı sistemi: kooperasiya və inteqrasiya problemləri" [18] adlı monoqrafiyalarını, E.Y. Məmmədovun "Müasir şəraitdə istehlak malları bazarının formalaşması və inkişafı problemləri" [19] iqtisad elmləri doktorluğu dissertasiyasını da xüsusi olaraq qeyd etmək lazımdır.

Eyni zamanda, bu problemin bir sıra məsələlərinin dəqiqləşdirilməsinə ehtiyac vardır və öz həllini tələb edir. Təcrübə göstərir ki, iqtisadi fəaliyyətin səmərəliliyinin təhlili və qiymətləndirilməsi üzrə qanunvericiliyin və təşkilati- metodoloji bazanın daha da təkmilləşdirilməsi lazımdır. Müasir bazar iqtisadiyyatı şəraitində qida sənayesi müəssisələrinin iqtisadi fəaliyyətinin səmərəliliyinin artırılması zəruriliyi, belə tədqiqatın praktiki əhəmiyyəti, sahənin rəqabət qabiliyyətliliyinin idarə edilməsi metodologiyası və təcrübəsinin ayrı-ayrı, lakin vacib məsələlərinin zəif araşdırılması bu problemin aktuallığını göstərir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın məqsədi Azərbaycanın qida sənayesi müəssisələrinin rəqabət qabiliyyətliliyinin təmin olunmasının qiymət mexanizmi problemlərinin tədqiqindən və onun təkmilləşdirilməsi üzrə nəzəri və praktiki tövsiyələrin işlənib hazırlanmasından ibarətdir.

Tədqiqatın məqsədinə uyğun olaraq aşağıdakı vəzifələr müəyyən edilmişdir:

- rəqabət qabiliyyətliliyinin təmin olunmasına qiymət mexanizminin təsirinin nəzəri əsaslarını, o cümlədən rəqabətqabiliyyətliliklə qiymət mexanizmi arasında funksional bağlılığın iqtisadi təbiətini, qida

---

[16] *Abbasov, A.F. «Ərzaq təhlükəsizliyi», Bakı: –2007, –602 s.*

[17] *Ataşov, B.X. "Ərzaq təhlükəsizliyinin aktual problemləri" / B.XAtaşov –Bakı: "Elm", –2011, –180 s.*

[18] *Quliyev, E.A. Qlobal ərzaq təhlükəsizliyi: reallıqlar,çağırışlar və perspektivlər. –Bakı, –2018. "Kooperasiya" nəşriyyatı, –480 s.; Quliyev, E.A "Etibarlı ərzaq təminatı sistemi: kooperasiya və inteqrasiya problemləri". –Bakı, "Elm" nəşriyyatı, –2013, –308 s.*

[19] *Məmmədov, E.Y. Müasir şəraitdə istehlak malları bazarının formalaşması və inkişafı problemləri. İqtisad elmləri doktoru alimlik dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı. –Bakı, –2014. –51s.*

məhsulları istehsalının rəqabətqabiliyyətliliyi amillərini, meyar və göstəricilərini araşdırmaq, habelə rəqabət və inhisar nisbətində qiymət mexanizminin rolu baxımından əsas bazar modellərinin fərqli xüsusiyyətlərini üzə çıxarmaq;

- Azərbaycanın qida məhsulları istehsalının və qida sənayesi müəssisələrinin müasir vəziyyətini təhlil edərək qiymətləndirmək;
- qida sənayesi müəssisələrinin xarici iqtisadi fəaliyyətinə gömrük-tarif amilinin təsirini araşdırmaq;
- innovasiya bazarı çərçivəsində qida sənayesi müəssisələrində qiymətəmələgəlmə modelinin formalaşması xüsusiyyətlərini müəyyənləşdirmək**;**
- qida sənayesi müəssisələrində rəqabətqabiliyyətliliyin artırılması yollarını və hüquqi mexanizmlərini müəyyən etmək;
- qida sənayesi müəssisələrində rəqabətqabiliyyətliliyinin təmin olunmasının qiymət mexanizminin təkmilləşdirilməsi ilə bağlı təkliflər hazırlamaq.

**Tədqiqatın obyekti** Azərbaycanın qida sənayesi müəssisələridir.

**Tədqiqatın predmeti** Azərbaycanın Respublikasının qida sənayesi müəssisələrinin rəqabətqabiliyyətliliyinin təmin olunmasının qiymət mexanizmini formalaşdıran təşkilati-iqtisadi münasibətlərdir.

Tədqiqatın metodoloji əsasını tədqiq olunan problem üzrə yerli və xarici iqtisadi alimlərin əsərləri təşkil edir. Tədqiqatın empirik bazası olaraq Azərbaycanın qida məhsulları istehsalının rəqabət qabiliyyətliliyini və qiymət mexanizmini tənzimləyən qanunvericilik və normativ sənədlərdən istifadə edilmişdir. İnformasiya bazasını qiymət və rəqabət qabiliyyətliliyi problemləri sahəsində Azərbaycan və xarici mütəxəssislərin əsərləri; elmi konfransların materialları; dövri nəşrlər; müəllifin özü tərəfindən toplanan və ümumiləşdirilən maliyyə hesabatları təşkil edir.

**Tədqiqat metodları.** Qarşıya qoyulmuş vəzifələrin həlli zamanı iqtisadi-statistika, iqtisadi-riyazi, sistemli, müqayisəli, məntiqi, səbəb-nəticə və struktur təhlili metodları, eləcə də ekspert qiymətləndirmələri metodu istifadə edilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Müəllif tərəfindən aşağıdakı yeni müddəalar, nəticələr və tövsiyələr alınmışdır:

- Azərbaycan Respublikasında və qlobal ərzaq bazarlarında qida sənayesi müəssisələrinin rəqabət qabiliyyətinin təmin olunmasına qiymət

mexanizminin təsirinin nəzəri aspektləri açıqlanmışdır (s. 38-40, 42-46);

- Azərbaycanın qida məhsulları istehsalı sahələrinin inkişaf meylləri və qida sənayesi müəssisələrinin rəqabət qabiliyyətinə təsir edən amillər, o cümlədən qida məhsulları istehsalının rəqabət qabiliyyətliliyinin təmin olunmasının qiymət mexanizmi aşkara çıxarılaraq qiymətləndirilmişdir(s. 50-60);

- ölkənin qida sənayesi müəssisələrinin xarici iqtisadi fəaliyyətində rəqabətqabiliyyətliliyin təmin olunması üzrə gömrük-tarif siyasətinin rolu əsaslandırılmışdır (s. 62-70);

- Azərbaycanın innovasiya məhsulları bazarında qida sənayesi müəssisələri üzrə qiymətlərin formalaşması mexanizmi araşdırılaraq qiymətləndirilmişdir(s. 74-76, 78-81);

-qida məhsulları istehsalının əsas fondlardan və işçi sayından asılılığının ekonometrik modelləşdirilməsi aparılmışdır(s. 83-87);

- Azərbaycanda qida sənayesi müəssisələrinin rəqabətqabiliyyətliliyinin təmin olunması və artırılmasında qiymət mexanizmindən istifadə üzrə dövlət tənzimlənməsinin və hüquqi mexanizmlərin təkmilləşdirilməsinə yönəldilmiş təkliflər hazırlanmışdır(s. 110-113, 125-126, 128-135).

**Tədqiqatın elmi yeniliyi** Azərbaycan Respublikasının qida sənayesi müəssisələrinin rəqabətliliyinin nəzəri və metodoloji problemlərinin araşdırılması və onun təmin olunmasında qiymət mexanizmindən istifadənin təkmilləşdirilməsinə yönəldilmiş təkliflərin işlənib hazırlanması ilə müəyyən edilir.

Disertasiya işinin elmi yeniliklərinə aşağıdakılar aiddir:

- klassik və müasir iqtisadi nəzəriyyələrin dərindən təhlilinə əsaslanaraq qida sənayesi müəssisələrində rəqabətqabiliyyətliliklə qiymət mexanizmi arasında funksional asılılıq, onların rəqabət qabiliyyətinə təsir edən amillər və rəqabət üstünlüklərinin formalaşması prinsipləri, şərtləri və istiqamətləri nəzəri-konseptual baxımdan dəqiqləşdirilmişdir(s. 18-20, 25-26, 32-33, 45-47);

- Azərbaycanın qida məhsulları istehsalı və müəssisələri üzrə mövcud vəziyyət təhlil edilərək qiymətləndirilmiş, uğurlar qeyd olunmaqla yanaşı, çatışmazlıqlar aşkara çıxarılaraq, onların aradan qaldırılması istiqamətində müvafiq təkliflər verilmişdir(s. 57-60);

- ölkənin qida sənayesi müəssisələrində ixrac-idxal əməliyyatlarının rəqabət qabiliyyətinin təmin edilməsinin qiymət mexanizmi müəyyən

ediləræk qiymətləndirilmişdir(s. 69-72);

- innovasiya məhsulları istehsalının formalaşmasında qiymət mexanizminin rolu araşdırılaraq qiymətləndirilmiş və qida məhsulları istehsalına bəzi iqtisadi amillərin təsirinin ekonometrik modelləşdirilməsi aparılmışdır (s. 74-75, 80-81, 85-87).

- qida sənayesi müəssisələrində rəqabətqabiliyyətliliyin yüksəldilməsinin təmin edilməsində qiymətin stimullaşdırıcı funksiyasının rolunun gücləndirilməsi ilə bağlı müvafiq təklif və tövsiyələr hazırlanmışdır(s. 93-94, 97-99, 110-113);

- müxtəlif bazar modellərində qida sənayesi müəssisələrində rəqabət qabiliyyətinin təmin olunması üzrə qiymət mexanizminin, eləcə də qiymətlərin tənzimlənməsinin təkmilləşdirilməsi prioritetləri müəyyən edilərək əsaslandırılmışdır(s. 116-121, 125-126).

**Tədqiqatın nəzəri və praktik əhəmiyyəti.** Tədqiqatın praktiki əhəmiyyəti xarici iqtisadi fəaliyyətdə tərəfdaş olan ölkələrin potensialını nəzərə almaqla, qida sənayesinin səmərəliliyinin artırılmasına imkan verən təkliflərin hazırlanmasında ifadə edilir. Rəqabətqabiliyyətliliyin təmin olunmasında qiymət mexanizmindən istifadə ilə bağlı verilən təklif və tövsiyələr qida məhsulları istehsalı müəssisələrinin investisiya, marketinq, yenidən təşkili və iflas məsələlərinin həllində vasitə kimi istifadə edilə bilər. Onlar rəqabətqabiliyyətli iqtisadiyyatın inkişafına görə məsul olan dövlət idarəetmə orqanlarının işçiləri, xarici iqtisadi məsələlər üzrə mütəxəssislər üçün maraqlı ola, həmçinin təhsil prosesində istifadə edilə bilər. Müəllifin qiymətləndirmələri və nəticələri "Korporativ iqtisadiyyat", "Müəssisə iqtisadiyyatı", "İstehsalın təşkili", "İnnovasiya iqtisadiyyatı" kursları üzrə tədris prosesində istifadə oluna bilər.

**Dissertasiyanın əsas müddəalarının aprobasiyası.** Dissertasiya işi Azərbaycan Dövlət İqtisad Universitetinin “Qiymət və qiymətləndirmə” kafedrasında yerinə yetirilmişdir. Ən mühüm müddəalar və nəticələr "Milli iqtisadiyyatın inkişafı və səmərəliliyinin yüksəldilməsi problemi”nə həsr edilmiş Beynəlxalq Konfransda (Bakı, 2012), Gənc tədqiqatçıların I Beynəlxalq Elmi Konfransında, (Bakı, 2013), Gənc tədqiqatçıların III Beynəlxalq Elmi Konfransında (Bakı, 2015), Doktorantları və gənc tədqiqatçıların XIX respublika elmi konfransında (Bakı, 2015), “Hamı üçün Həyat Boyu Təhsil və Liderlik üzrə” 5-ci Beynəlxalq Konfransda (Bakı, Sakarya, 2019), “Azərbaycan və Türkiyə

Universitetləri: təhsil, elm, texnologiya" I Beynəlxalq elmi-praktiki konfransda (Bakı, 2019), İqtisadi və Sosial İnkişaf İnkişafı üzrə 55 -ci Beynəlxalq Elmi Konfransda (Bakı, 2020) məruzə edilmişdir. Dissertasiya işinin nəticələri 3-ü xaricdə (Moskva, Xmelnitski, Roma) olmaqla 8 elmi jurnalda dərc etdirilmişdir.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı:** Azərbaycan Dövlət İqtisad Universitetinin "Sosial inkişaf iqtisadiyyatı və qiymətləndirmə" kafedrası

**İşin strukturu.** Dissertasiya giriş (19.471 işarə), 3 fəsil (I fəsil – 64.235 işarə, II fəsil – 63.887 işarə, III fəsil – 89.700 işarə), nəticə (14.771 işarə) və istifadə olunan mənbələrdən ibarətdir. Tədqiqat əsərinin həcmi 152 səhifə (252.064 işarə) təşkil edir. İşdə 12 cədvəl, 17 şəkil verilmişdir.

## DİSSERTASİYA İŞİNİN QURULUŞU

**Giriş**

**I Fəsil. Qida sənayesi müəssisələrində rəqabətqabiliyyətliliyinin təmin olunmasına qiymət mexanizminin təsirinin tədqiqinin elmi metodoloji əsasları**

1.1. Rəqabətqabiliyyətliliklə qiymət mexanizmi arasında funksional bağlılıq və qida sənayesində onun təzahür formaları

1.2. Qida sənayesi müəssisələrinin **r**əqabətqabiliyyətliliyinə müxtəlif səviyyələrdə yanaşmanın fəlsəfi-iqtisadi aspektləri

1.3. Müxtəlif bazar modelləri üzrə müəssisələrin rəqabət və inhisarlaşma səviyyələrinə qiymət mexanizminin təsirinin xarakterik cəhətləri

**II Fəsil. Müasir dövrdə qida sənayesi müəssisələrinin rəqabətqabiliyyətliliyin təmin olunmasına qiymət mexanizminin təsirinin sistemli təhlili və dəyərləndirilməsi**

2.1. Azərbaycanın qida məhsulları istehsalı və müəssisələri üzrə mövcud vəziyyətin təhlili və qiymətləndirilməsi

2.2. Qida sənayesi müəssisələrində ixrac-idxal əməliyyatları üzrə rəqabət qabiliyyətinin təmin edilməsinin qiymət mexanizmi

2.3. Müəssisədə innovativ məhsullar istehsalının formalaşmasında qiymət mexanizmi və onların istehsalına bəzi iqtisadi amillərin təsirinin ekonometrik modelləşdirilməsi

**III Fəsil. Qida sənayesi müəssisələrində rəqabətqabiliyyətliliyin təmin olunmasının qiymət mexanizminin təkmilləşdirilməsinin əsas istiqamətləri**

3.1. Qida sənayesi müəssisələrində rəqabətqabiliyyətliliyin yüksəldilməsinin təmin edilməsinin stimullaşdırılması mexanizmi

3.2. Müəssisələrin rəqabətqabiliyyətliliyinin təmin olunmasının qiymət mexanizminin təkmilləşdirilməsi prioritetləri

3.3. Müxtəlif səviyyəli inhisar subyektlərində qiymətlərin tənzimlənməsinin təkmilləşdirilməsi yolları

**Nəticə**

**İstifadə edilən ədəbiyyat siyahısı**

## MÜDAFİƏYƏ TƏQDİM EDİLƏN ƏSAS MÜDDƏALAR

**1. Azərbaycan Respublikasında və qlobal ərzaq bazarlarında qida sənayesi müəssisələrinin rəqabət qabiliyyətinin təmin olunmasına qiymət mexanizminin təsirinin nəzəri aspektləri açıqlanmışdır[20].**

Milli iqtisadiyyatın rəqabətqabiliyyətliliyinin yüksəldilməsi cox şaxəli, cox səviyyəli, cox istiqamətli bir problemdir. Ona görə də bu məsələnin həllinə kompleks yanaşmaq lazımdır.

Rəqabət mühitinin dinamikliyi, rəqiblərin davranışının qabaqcadan bilinməzliyi, ölkə prioritetlərinin tez-tez əvəzlənməsi ilə xarakterizə olunan müasir şəraitdə sənaye müəssisələrinin fəaliyyəti rəqabət üstünlüklərinin daim yaradılmasını və reallaşdırılmasını tələb edir ki, bu da qarşıya qoyulan məqsədlərə nail olmağa və uzunmüddətli perspektivə rəqabətqabiliyyətliliyinin yüksək səviyyəsini dəstəkləməyə imkan verərdi. Yerli müəssisələrin rəqabətqabiliyyətliliyinin aşağı səviyyəsi sənaye müəssisələrinin rəqabətqabiliyyətliliyinin təminatının effektiv aləti kimi rəqabətqabiliyyətliliyinin idarə edilməsinin nəzəriyyə və praktikasının inkişafının və rəqabət üstünlüklərinin formalaşmasına elmi yanaşmaların təkmilləşdirilməsinin obyektiv zəruriliyini şərtləndirir. Müəssisələrin fəaliyyəti və onların rəqabətqabiliyyətliliyi haqqında yerli və xarici alimlərin fundamental və tətbiqi tədqiqatların təsiri altında inkişaf tapmışdır. Rəqabətqabiliyyətlilik sahəsində nəzəri və metodiki biliklərin təqdimatında alimlərin böyük marağı həmin istiqamətin inkişafının aktuallığı və perspektivliyini sübut edir.

Müasir şəraitdə müəssisənin uğur qazanmasının ən vacib meyarı rəqabət qabiliyyətidir. Müəssisənin rəqabətqabiliyyətliliyi dedikdə, rəqiblərə nisbətən onun öz məhsullarını daha səmərəli işləyib hazırlamaq, istehsal etmək və satmaq qabiliyyətini başa düşürük. Müəssisənin rəqabət qabiliyyəti rəqabət üstünlükləri - iqtisadi, sənaye, təşkilati, sosial, bazar

---

[20] *Səfərova F.M. "Qiymət siyasəti milli iqtisadiyyatın tənzimlənmə vasitəsi kimi" İqtisad elmləri: nəzəriyyə və praktika j., № 1, Bakı 2011, s. 169-175; Səfərova F.M. "Müasir dövrdə dövlətin qiymət siyasətinin formalaşmasının konseptual əsasları və prioritetləri" "Milli iqtisadiyyatın inkişafı və səmərəliliyinin yüksəldilməsi problemi"nə həsr edilmiş Beynəlxalq Konfransın materialları, Bakı 2012, s. 47-50; Səfərova, F.M. "Rəqabət strategiyasının secilməsində qiymət mexanizmindən istifadənin nəzəri-metodoloji əsaslarının tədqiqi" AMEA-nın "İqtisadiyyat institunun elmi əsərləri" Bakı 2014, №3. s. 49-55.*

fəaliyyət sahələrində onun rəqiblərindən üstün olması ilə təmin olunur. Rəqabət üstünlüklərini yaratmağa yönəldilmiş iqtisadi mexanizmin fəaliyyəti üçün şərtlər kifayət deyil. Mexanizmin özü effektiv olmalıdır.

Bu mexanizm aşağıdakı kimi fəaliyyət göstərir: bazar qiymətinin öz təbii səviyyəsini ötməsi satıcıların rəqabətinin meydana çıxmasına səbəb olan "real" (alıcılıqqabiliyyətli) tələbin olmaması ilə xarakterizə olunur, əksinə olduqda, yəni bazar qiymətinin öz təbii səviyyəsindən aşağı düşməsi halında isə alıcıların məhsula görə rəqabətinə səbəb olur. Hər iki halda, qiymət rəqabəti mexanizminin təsiri malın faktiki qiymətini onun təbii səviyyəsinə uyğun vəziyyətə gətirir ki, bu da bazara aşağı keyfiyyətli və ya çox bahalı məhsullar buraxan istehsal şirkətlərini sıxışdırmaqla öz nizamlama funksiyasını səmərəli həyata keçirməyə imkan verir.

Azərbaycan iqtisadiyyatında rəqabət mühitinin formalaşması bazar münasibətlərinin inkişafı və fəaliyyət göstərməsi üçün zəruri şərtdir. Rəqabət bazar mexanizminin ən mühüm elementi kimi çıxış edərək, iqtisadi inkişafın əsas hərəkətverici qüvvələrindən birinə çevrilmişdir. Bugünkü iqtisadiyyatda rəqabət üstünlüklərinə qiymətlərin azaldılması və keyfiyyətin artırılması ilə eyni zamanda əldə edilə bilər ki, bu da resurslara qənaət texnologiyalarından istifadə etməklə, bahalı resursların cəlbinin minimuma endirilməsi, istehsalın nisbətən ucuz amillərinin sayının artırılması ilə əldə edilir, yəni bazar şəraitində qiymət rəqabəti mexanizmindən istifadə qaçılmazdır.

### 2. Azərbaycanda qida məhsulları istehsalının rəqabət qabiliyyətinə təsir edən amillərin aşkara çıxarılaraq qiymətləndirilməsi ölkəmizin ərzaq təhlükəsizliyinin təmin olunmasının tələbidir[21].

Azərbaycanda qida istehsalı aşağıdakı sahələrlə təmsil olunur: balıq, çörəkbişirmə, ət-süd, qənnadı məmulatları, şəkər, yağ-piy, makaron, meyvə konservi, pivə, şərab, duz, çay, və s. Bu sahələr ölkə əhalisini effektiv qidalanma ilə tam şəkildə təmin edə biləcək bir çox

[21] *Səfərova F.M. "Beynəlxalq təcrübədə qiymətin əsaslandırılması prosesinə rəqabətin təsirinin qiymətləndirilməsi" AMEA-nın "Xəbərləri" İqtisadiyyat seriyası,ü Bakı 2014, №2, s. 81-85; Сафарова Ф.М. "Цен образующие факторы конкурентоспособности Азербайджанской промышленности во внешней торговле» «Экономика и предпринимательство» журнал № 8, Москва, 2015, с. 173-175; Səfərova F.M. "Azərbaycanda rəqabətqabiliyyətli ərzaq məhsulları üzrə istehsal potensialından istifadənin genişləndirilməsi yolları" AMEA-nın İqtisadiyyat İnstitutunun 60 illik yubileyinə həsr edilmiş "İqtisadi artım və ictimai rifah" Beynəlxalq elmi-praktiki konfransın materialları. Bakı 2018, s.541-545.*

altsahə dəstinə malikdir.

**Cədvəl 1. Azərbaycanda ÜDM, sənaye və qida sənayesində istehsal dinamikası (real qiymətlər, mln. manat)**

| İllər | ÜDM | Sənaye istehsalı | ÜDM-də sənayenin payı,% | Qida sənayesi istehsalı | Qida sənayesinin ÜDM-dəki payı,% | Qida sənayesinin sənaye istehsalındakı payı,% |
|---|---|---|---|---|---|---|
| 2000 | 4718,1 | 3640,0 | 77,1 | 698,9 | 14,8 | 19,2 |
| 2005 | 12522,5 | 9308,8 | 74,2 | 1197,4 | 9,6 | 12,9 |
| 2010 | 42465,0 | 27978,2 | 67,3 | 2117,1 | 5,0 | 7,6 |
| 2015 | 54380,0 | 26369,4 | 48,5 | 2547,2 | 4,7 | 9,7 |
| 2016 | 60425,2 | 32300,2 | 53,5 | 2964,7 | 4,9 | 9,2 |
| 2017 | 70337,8 | 39892,5 | 52,5 | 2999,8 | 4,3 | 7,5 |
| 2018 | 80092,0 | 47677,0 | 59,5 | 3050,8 | 3,8 | 6,4 |
| 2019 | 81896,2 | 46999,2 | 57,5 | 3584,8 | 4,4 | 7,6 |
| 2020 | 72432,2 | 37269.9 | 51,5 | 3884.3 | 5,4 | 10,4 |

*Mənbə: Azərbaycan Dövlət Statistika Komitəsi*

Cədvəl 1-də verilən məlumatlar qida sənayesi məhsullarının istehsal həcminin getdikcə artan tendensiyada olduğunu göstərsə də, cədvəlin son iki sütunundakı məlumatlar vacib bir məsələni ortaya qoyur. Ümumi sənaye istehsalında qida sənayesi istehsalının payı həddən artıq dəyişir. Cədvəldəki məlumatlar təhlil edildikdə sənayenin ÜDM-ə görə ölkə iqtisadiyyatının lokomotivi olduğu halda qida sənayesinin ümumi inkişaf tempinin ölkə iqtisadiyyatının artım templərindən çox geri qaldığını görmək mümkündür.

2020-ci ildə Azərbaycan Respublikasında qida məhsulları istehsalı (buraya içki və tütün məhsulları da daxildir) bütövlükdə ölkə iqtisadiyyatı üzrə ümumi məhsulun 5,4% -nə bərabərdir, əsas istehsal fondlarının dəyərinin 1,6%-ni təşkil edir, burada çalışanların payı sənaye-istehsal heyətinin 1,6% -dir[22].

Qida məhsulları həm də Azərbaycanın aqrar-sənaye kompleksinin ən vacib sahələrindən biridir. Onun səmərəli işləməsi ölkənin iqtisadi təhlükəsizliyinin təmin edilməsi və əhalinin həyat səviyyəsinin yaxşılaşdırılması üçün böyük əhəmiyyətə malikdir, belə ki 2020-cu ildə sənaye məhsullarının (içki və tütün istehsalı istisna olmaqla) ümumi dəyərindəki sahənin payı 10,6 faizdır. Sənayenin özəl sektorundakı sahənin özəl sektorunun payı 9,3 faizdir[23].

[22] *www.azstat.org*
[23] *www.azstat.org*

Sənayedə qarşıya qoyulan başlıca məqsədlərdən biri ölkədə və onun regionlarındakı sənaye müəssisələrinin fəaliyyətini bərpa etmək, yeni müəssisələr yaratmaqdan ibarətdir. Burada aqrar sahə məhsulları və sənaye məhsulları üzrə emal müəssisələrinin bərpası və bu istehsalla əlaqəli olan fermerlər tərəfindən yetişdirilən məhsulların satış imkanlarının artırılması xüsusilə diqqət mərkəzində saxlanılmalıdır.

Statistik məlumatlara görə, bu gün ölkə ərazisində 2021-ci ilin əvvəlinə fəaliyyət göstərən qida sənayesi müəssisələrinin sayı 500-ə yaxındır. Onlardan 98,15%-i qeyri-dövlət mülkiyyətində, 1,85%-i isə dövlətin tabeliyindədir. Bundan əlavə, qida məhsulları istehsalı ilə 6042 fərdi sahibkar məşğul olur ki, bu da 2015-ci illə müqayisədə təxminən 1,5 dəfə çoxdur (cədvəl 2).

**Cədvəl 2. Azərbaycanda fəaliyyət göstərən qida sənayesi müəssisələrinin əsas göstəriciləri**

| Göstəricilər | İ L L Ə R | | | | 2015-2020-ci illərdə artım tempi, %-lə |
|---|---|---|---|---|---|
| | 2015 | 2018 | 2019 | 2020 | |
| Fəaliyyətdə olan müəssisə sayı - cəmi | 382 | 393 | 449 | 487 | 127,5 |
| O cümlədən dövlət bölməsi | 18 | 7 | 9 | 9 | 50,0 |
| qeyri-dövlət bölməsi | 364 | 386 | 440 | 478 | 131,3 |
| Sənaye fəaliyyəti göstərən qeydiyyata alınmış fərdi sahibkarlar, nəfərlə | 4079 | 4754 | 5252 | 6042 | 148,1 |
| Sənaye məhsulu (işlər, xidmətlər) dəyəri, milyon manatla | 2307,6 | 3050,8 | 3584,8 | 3884,3 | 168,3 |
| Sənaye istehsalı indeksi, əvvəlki illə müqayisədə, faizlə | 102,9 | 101,3 | 110,8 | 97,3 | x |
| Ölkə üzrə istehsal edilmiş ümumi sənaye məhsulu dəyərində sahənin xüsusi çəkisi, faizlə | 8,8 | 6,4 | 7.6 | 10,4 | +1,6 |
| Ölkə sənayesi üzrə qeyri-dövlət bölməsində sahənin qeyri-dövlət bölməsinin xüsusi çəkisi, faizlə | 11,5 | 7,7 | 9,3 | 13,3 | +1,8 |
| Əsas kapitala investisiyaların həcmi, mln. manat | 87,9 | 196,6 | 140,4 | 225,1 | 2,6 dəfə |
| Sənayeyə yönəlik ümumi investisiyaların həcmində sahə investisiyalarının xüsusi çəkisi, faizlə | 1,0 | 2,3 | 1,5 | 2,5 | +1,5 |
| Sənaye məhsullarının istehsalçı qiymət indeksi, əvvəlki illə müqayisədə, faizlə | 102,9 | 102,9 | 103,8 | 101,4 | x |

***Mənbə: Azərbaycan Dövlət Statistika Komitəsi, 2021, s.64***

Statistik məlumatlardan aydın olur ki, 2020-ci ildə fəaliyyət göstərən 2515 emal sənayesi müəssisələrinin 487-si (19,4%-i) qida

məhsulları istehsalı, 131-i (5,2%-i) içki istehsalı və yalnız 13-ü (0,5%-i) tütün məmulatları istehsalı müəssisələridir. Onu da qeyd edək ki, qida məhsulları istehsalı müəssisələrinin sayı 2020-ci ildə 2019-cu illə müqayisədə 8,5% artıb ki, bu da bütövlükdə emal sənayesi müəssisələrinin artım tempini üstələyir. Qida məhsulları istehsalı müəssisələrinin 60%-ə qədəri mikro müəssisələr olmaqla 2019-2020-ci illər ərzində 16,1% (40 müəssisə) artmışdır. Kiçik müəssisələrin sayında 4,4%(4 müəssisə) azalma olsa da, orta və iri müəssisələrin sayında 1,8%-lik (2 müəssisə) artım müşahidə edilmişdir (cədvəl 3).

**Cədvəl 3. İqtisadi fəaliyyət növlərinə və ölçüsünə görə emal sənayesi müəssisələrinin qruplaşdırılması**

| İqtisadi fəaliyyət növləri | 2019 | 2020 | 2020-ci il 2019-cu ilə nisb. %-lə |
|---|---|---|---|
| **Emal sənayesi** | **2330** | **2515** | 107,9 |
| mikro | 1328 | 1515 | 114,1 |
| kiçik | 564 | 557 | 98,8 |
| orta və iri | 438 | 443 | 101,1 |
| **Qida məhsulları istehsalı** | **449** | **487** | 108,5 |
| mikro | 249 | 289 | 116,1 |
| kiçik | 91 | 87 | 95,6 |
| orta və iri | 109 | 111 | 101,8 |
| **İçki istehsalı** | **126** | **131** | 104,0 |
| mikro | 64 | 70 | 109,4 |
| kiçik | 37 | 37 | 100 |
| orta və iri | 25 | 24 | 96 |
| **Tütün məmulatları istehsalı** | **11** | **13** | **118,2** |
| mikro | 5 | 7 | 140 |
| kiçik | - | - | - |
| orta və iri | 6 | 6 | 100 |

*Mənbə: Azərbaycanın sənayesi. Statistik məcmuə. Bakı, 2021, s. 15.*

Respublikada əvvəllər idxal edilən bəzi qida məhsullarının hazırda istehsalı təşkil edilmişdir. Bununla yanaşı, Azersun Holding (yağ, konserv, çay, şəkər), BM - SUN (paketlənmiş çay), "Coca – Cola" (alkoqolsuz içkilər), European Tobacco (siqaret), Azer - Castel (pivə), DAD, Bərəkət (süd məhsulları), Elvan Türk-Azəri Qida Sənaye LTD ŞTİ (şokolad), "Sickendick" (kolbasa məmulatları) və s. bu kimi xarici və müştərək müəssisələr qabaqcıl dünya standartlarına uyğun məhsullar istehsal edərək yerli bazarın tələbatını qarşılayır və bununla da idxalı əvəz etmiş olur.

Azərbaycanda fəaliyyətinə 1991-ci ildən başlamış "Azərsun

Holdinq" ölkəmizin ərzaq təhlükəsizliyinin təmin olunmasında müstəsna rola malikdir.

**3. Ölkə müəssisələrinin xarici iqtisadi fəaliyyətində rəqabətqabiliyyətliliyin təmin olunmasında dövlətin çevik gömrük-tarif və rəqabətədavamlı innovasiya siyasətinin formalaşdırılması və inkişaf etdirilməsi vacibdir[24].**

Bitkiçilik məhsullarının ixrac bazarları üzrə rəqabətə tab gətirə bilən şirkətlər sırasında "Azərsun Holdinq"in, "Gilan Holdinq"in, "Aznar"ın, "Az-Granata" MMC-nin və"Aqrar tədarük və təchizat" ASC-nin adlarını çəkmək olar.Bu şirkətlərin emal etdikləri məhsullar özlərinin rəqabətə davamlılığı ilə seçilirlər. Məsələn, "Az-Granata" MMC-nin istehsal məhsulları olan şərab, tünd içkilər, konyak, şirə və nektar, kompot,viski və s. üzrə illik istehsal gücünün 100 milyon qablaşdırma təşkil etməsi mühüm əhəmiyyət kəsb edir. Bu şirkətin məhsul ixracı 20 ölkə ilə aparılır ki, bunların arasında ABŞ və Almaniya da vardır. Yaxın gələcəkdə müasir tipli emal müəssisələrini artırmaqla bərabər, respublikada kartof, pomidor, soğan və s. kimi məhsulların emalı xüsusilə diqqət mərkəzində saxlanılmalıdır.

Meyvə-tərəvəz məhsullarının topdan satışı bazarını təhlil edərək belə bir nəticəyə gəldik ki, bu məhsulların topdan satışında bazar subyektlərinin fəaliyyəti qeyri-sabitdir. Məhsulların idxalı ilbəil artır. Gömrük orqanlarının məlumatlarından aydın olur ki, sərhəddə elan edilmiş tərəvəz və meyvə qiymətləri son istehlakçıya çatdırılmasına nisbətən bir neçə dəfə aşağıdır. Çoxsaylı vasitəçilərin mövcudluğu faktı qeydə alınmışdır.

Ərzaq məhsullarının idxalının indiki inhisarlaşması bazar subyektləri tərəfindən tanınmış istehsalçıların əmtəə nişanları altında müəyyən malların idxalına və istifadəsinə müstəsna hüquqların alınmasından ibarətdir. Müstəsna hüquq sahibləri tərəfindən müəyyən edilmiş məhsullar üzrə markalanmanın həcmi bəzən 100% -ə çatır[25].

---

[24] *Safarova F.M. "Effective Utilization of Scientific-Technical and Innovative Potential as an Important Factor of the Development of the Non-Oil Sector". 5 Th International Conference On Lifelong Education And Leadership For All 9-11 July, 2019 Baku, Azerbaijan Abstract Book, Online Publication: September 19, 2019 ICLEL Publication: ICLEL Conferences Sakarya University Faculty of Education 54300 Sakarya, TURKEY, p. 1036-1039.*

[25] *Səfərova F.M. "Azərbaycanda rəqabətqabiliyyətli ərzaq məhsulları üzrə istehsal potensialından*

Azərbaycanın şimal bölgələrində meyvə-tərəvəz məhsullarının geniş miqyaslı alışlarını Rusiya sahibkarları həyata keçirir. Qiymətlərin artması adətən Rusiya tərəfindən gömrük rüsumlarının aşağı səviyyədə qoyulması ilə əlaqədardır. Rusiyadan olan tərəfdaşlarla işləmək üçün onların Azərbaycandan bostan və tərəvəz məhsulları satın almaqları təchizatçılarımız üçün xeyli sərfəlidir. Bu da həqiqətdir ki, iri məhsul satıcıları ilə razılaşdırılmış tədbirlərin həyata keçirilməsi mühüm əhəmiyyət kəsb edir. Gömrük işçiləri tərəfindən ölkəyə əsas təchizatçılarla və təchizat zəncirinin müəyyənləşdirilməsi ilə bağlı mühüm işlər aparılır. Malların əsassız qiymət artımı və satışının məhdudlaşdırması halında, antiinhisar xarakterli cavab tədbirləri həyata keçirilir.

Malların və xidmətlərin dəyərinin azaldılmasının, eləcə də kəsirin aradan qaldırılmasının ən səmərəli yolu – yalnız antirəqabət davranışlarının qarşısının alınması deyil, həm də bazarın bu seqmenti üzrə rəqabətin geniş inkişafının daxil olduğu sağlam rəqabət münasibətləridir. Bununla yanaşı iri ticarət şəbəkələri tərəfindən lüzumsuz vasitəçi strukturların və ayrı-seçkilik şəraitinin aradan qaldırılması üçün geniş miqyaslı işlər həyata keçirmək lazımdır. Həmçinin, qida və meyvə-tərəvəz bazarlarının infrastrukturuna tələbatı, eləcə də qida məhsullarının xarici istehsalçıları və yerli ticarət şəbəkələri arasında əlavə birbaşa müqavilələr müəyyən etmək lazımdır.

Ərzaq balansının məlumatlarından göründüyü kimi, ölkədə son illər ərzində süd və süd məhsulları istehsalının artmasına baxmayaraq, onların Azərbaycana idxal həcmində hətta artım müşahidə edilir. Respublikaya çoxlu həcmdə süd məhsullarının idxal edilməsinin əsas səbəbi bir tərəfdən, ölkədə süd emalı müəssisələrinin sayının az olmasıdırsa, digər tərəfdən, sənaye ehtiyaclarına görə təbii süd xammalı istehsalı həcminin zəruri tələblərə cavab verməməsi ilə bağlıdır. Bundan əlavə, ölkədə süd istehsalının 1 sentnerinin maya dəyəri 2015-2020-ci illərdə 12,68 manat, 1 sentnerinin satış qiyməti isə 12,39 manat yüksəlmişdir.

Ölkənin Strateji Yol Xəritəsində qeyd olunduğu kimi, ölkədə keyfiyyətli və bazar tələblərinə uyğun böyük həcmdə süd məhsulları

---

*istifadənin genişləndirilməsi yolları" AMEA-nın İqtisadiyyat İnstitutunun 60 illik yubileyinə həsr edilmiş "İqtisadi artım və ictimai rifah" Beynəlxalq elmi-praktiki konfransın materialları. Bakı 2018, s.541-545.*

istehsalını reallaşdırmaq məqsədilə fəaliyyət göstərən emal müəssisələrinin əhatə dairəsini genişləndirmək və istehsal güclərini artırmaq, eləcə də təbii süd xammalı üzrə istehsal potensialından maksimum istifadəni təmin etmək son dərəcə vacibdir.

Azərbaycan Respublikasında xarici iqtisadi fəaliyyətin liberallaşdırılması xarici ölkələrdən ərzaq idxalının kəskin artmasına gətirib çıxarmışdır. Odur ki, hazırda Azərbaycanın ərzaq bazarında xarici iqtisadi fəaliyyətin daha da inkişafı, ilk növbədə, ərzaq məhsullarının yerli istehsalının inkişaf dinamikasına bağlıdır. Yerli istehsalçıların qorunmasının təmin edilməsi və Azərbaycanın qida təhlükəsizliyi yalnız aqrar-sənaye sektorunun və onların məhsullarının rəqabət qabiliyyətinin artırılması əsasında mümkündür.

Qeyd edək ki, Azərbaycanın ərzaq bazarı iri beynəlxalq ərzaq şirkətlərinin fəal diqqət mərkəzindədir. Yerli istehsalçıların sıxışdırılması dempinq qiymətlərin köməkliyi və ixracatçı ölkələrin hökumətlərinin aktiv dəstəyi ilə ixracat subsidiyaları mexanizmi vasitəsilə həyata keçirilir. Ərzaq bazarında Azərbaycanın səmərəli xarici iqtisadi siyasətinin hazırlanması üçün xeyli illərdən artıq davam edən Ümumdünya Ticarət Təşkilatına (ÜTT) üzvlüyə dair danışıqların nəticələri xüsusi əhəmiyyət kəsb edir.

Müasir şəraitdə fəaliyyət göstərən hər bir istehsalçı, hər bir təsərrüfat subyekti üçün qiymət haqqında məsələ onun biznesinin mövcudluğu haqqında məsələdir. Bazar konyunkturundan və qiymət tərəddüdlərindən bütövlükdə ölkə iqtisadiyyatının sabitliyi, əhalinin həyat səviyyəsi, cəmiyyətdə sosial gərginliyin səviyyəsi asılıdır. Firmanın qiymət siyasəti onun rəqiblərlə mübarizə strategiyasının vacib elementi sayılır. Bu xüsusilə də innovasiya məhsullarına qiymətlərin formalaşması üçün vacibdir.

**4. Qida məhsulları istehsalının əsas fondlardan və işçi sayından asılılığının ekonometrik modelləşdirilməsi aparılmış, müəyyən edilmişdir ki, təhlil edilən dövrdə məhsul istehsalının həcmi daha çox əsas fondların həcminin, beləliklə də əməyin fondla silahlanmasının artması hesabına baş vermiş, innovativ amillər əsasında intensiv inkişaf meylləri artmışdır[26].**

[26] *Safarova F.M. "The Provision of Education: Research and Innovation Unity is an Important Factor in Raising the Competitiveness of the National Economy" 5 Th International Conference*

Sənayedə qida məhsullarının istehsalı əhalinin yeyinti məhsulları ilə təmin edilməsində önəmli yer tutur. Biz araşdırmamızda Azərbaycanda 2005-2019-cu illər ərzində qida məhsullarının istehsal həcminin əsas fondlardan və qida istehsalında məşğul olan muzdlu işçilərin sayından asılılığının Kobb-Duqlas tipli funksiyasını qurmuşuq. Bunun üçün AR DSK-nın müvafiq statistik məcmuələrindən və saytındakı məlumatlardan istifadə edilmişdir. Toplanmış məlumatlar cədvəl 4-də təsvir edilib.

**Cədvəl 4. Qida sənayesi istehsalının bəzi göstəriciləri**

| İl | Qida məhsullarının istehsalının həcmi cari (mln. manat) Y | Qida məhsulları istehsalında işçilərin sayı (min nəfər) L | Qida məhsullarının istehsalı fondları, cari (milyon man) K | Qida sənayesində 1 işçiyə düşən qida məhsulunun həcmi (min man), cari qiymətlərlə Y/L | Qida sənayesində 1 işçiyə düşən əsas fondların həcmi(min man), cari, qiymətlərlə K/L |
|---|---|---|---|---|---|
| 2005 | 1 094,5 | 13,0 | 371,7 | 84,192 | 28,592 |
| 2006 | 1 154,3 | 13,8 | 441 | 83,645 | 31,957 |
| 2007 | 1 254,9 | 15,8 | 499,4 | 79,424 | 31,608 |
| 2008 | 1 381,0 | 17,0 | 589 | 81,235 | 34,647 |
| 2009 | 1 520,3 | 17,4 | 607,9 | 87,374 | 34,937 |
| 2010 | 1 924,6 | 15,1 | 779,9 | 127,457 | 51,649 |
| 2011 | 2 107,6 | 14,6 | 786,5 | 144,356 | 53,870 |
| 2012 | 2 574,8 | 17,0 | 856,4 | 151,459 | 50,376 |
| 2013 | 2 286,4 | 18,8 | 796,9 | 121,617 | 42,388 |
| 2014 | 2 422,0 | 20,6 | 857,7 | 117,573 | 41,636 |
| 2015 | 2 307,6 | 18,8 | 884,2 | 122,745 | 47,032 |
| 2016 | 2 964,7 | 18,8 | 910,4 | 157,697 | 48,426 |
| 2017 | 2 999,8 | 20,8 | 939,4 | 144,221 | 45,163 |
| 2018 | 3050,8 | 21,5 | 953,5 | 141,898 | 44,349 |
| 2019 | 3584,8 | 22,3 | 985,7 | 160,753 | 44,202 |
| 2019/ 2005 | 3,28 dəfə | 1,72 dəfə | 2,65 dəfə | 1,91 dəfə | 1,55 dəfə |

*Mənbə: Azərbaycan sənayesi, 2005-2018-ci illər. AR DSK. Bakı. www.stat.gov.az müəllif tərəfindən tərtib edilmişdir*

İqtisadi nəzəriyyədən məlumdur ki, istehsal həcminin əsas fondlardan və işçi qüvvəsindən asılılığını təsvir etmək üçün Kobb-Duqlas funksiyasından istifadə etmək olar. Bu funksiyanın belə təsvir etmək olar.

*On Lifelong Education And Leadership For All 9-11 July, 2019 Baku, Azerbaijan Abstract Book, Online Publication: September 19, 2019 ICLEL Publication: ICLEL Conferences Sakarya University Faculty of Education 54300 Sakarya, TURKEY, p. 808-811.*

$$\frac{Y}{L} = C(\frac{K}{L})^{\alpha} \quad (1)$$

Burada Y – qida məhsullarının istehsalı həcmi (dəyər ifadəsində), L – qida məhsulları istehsalı ilə məşğul olan muzdlu işçilərin sayı, C – müəyyən bir sabit kəmiyyət, α -elastiklik əmsalıdır. Əgər zaman amili də nəzərə alınarsa, onda (1) tənliyini belə yazmaq olar.

$$\frac{Y}{L} = C(\frac{K}{L})^{\alpha} e^{\beta t} \quad (2)$$

(2) modelinin parametrlərini müəyyən etmək üçün ekonometrik paketindən istifadə edək. Alınmış model aşağıdakı kimi təsvir edilir.

LOG(Y/L)= 2.02385371968 + 0.673928203991*LOG(K/L) + 0.0319938061912*@TREND + [AR(3)= -0.883211175211,UNCOND,ESTSMPL="2005 2017"] (3)

Burada @TREND – zamanı (il), AR(3) isə qalıqların 3-cü tərtib avtokorrelyasiyasını göstərir.

(3) tənliyini belə də təsvir etmək olar.

$$Y=7,5674K^{0,67}L^{0,33}e^{0,03t} \quad (4)$$

Onun iqtisadi mənası bundan ibarətdir ki, qida sənayesində əsas fondların həcminin 1% artması qida məhsulunun həcmini 0,67%, işçilərin sayının 1% artması isə məhsul həcmini 0,33% artırır. Zaman (t) dəyişəninin əmsalı isə onu göstərir ki, hər il məhsul istehsalı elmi-texniki tərəqqi hesabına 3% artır. Qurulmuş modelin ekonometrik statistikasına əsasən görünür ki, modeldəki izahedici dəyişənlərin hər biri 99% etibarlılıqla statistik önəmlidir, belə ki:

Prob(C=0)=0,0008,
Prob(K/L=0)=0,0003,
Prob(@TREND=0)=0,0000,
Prob(AR(3)=0)=0,0002.

Determinasiya əmsalının qiyməti R-squared=0,9739 kimi tapılıb. Bu o deməkdir ki, hər işçiyə düşən qida məhsulunun həcminin dəyişməsi 97,39% hər işçiyə düşən əsas fondun həcmindən, yəni əməyin fondla silahlanması səviyyəsindən asılıdır. Nəticədə qurulmuş reqressiya tənliyinin real qiymətlərə yaxın qiymətlər aldığı müşahidə edilmiş, qalıqlar avtokorrelayasiyadan təmizlənmişdir.

Modelin adekvatlıq göstəricilərindən biri də qalıqların heteroskedastik olmadığının yoxlanmasıdır. Bunu üçün Breusch-Pagan-

Godfree testindən istifadə edilib. Məlum olub ki, Prob F(2,10)=0,9473 və bu qiymət də 0,05-dən böyük olduğu üçün belə qənaətə gəlinib ki, qalıqlar heteroskedastik deyil. Nəhayət, qalıqların normal paylanmasını yoxlamaq üçün Jarque-Bera normallıq testi icra edilib. Jarque-Bera testinin nəticələrindən görünüb ki, qalıqların orta və median qiymətləri 0,01 dəqiqliklə bir-birinə bərabərdir. Belə ki:

$$Mean=0{,}003931\approx 0{,}000954=Median.$$

Simmetriya oxu bir qədər sağa sürüşüb, yəni Skewness=0,394519. Bundan başqa Kurtosis=1,964642. Probability=0,631953 və bu qiymət 0,05-dən böyük olduğu üçün bu qənaətə gəlirik ki, qalıqlar normal qanunla paylanıb. Ekonometrik modelin bütün zəruri testləri icra edilib və qənaətbəxş nəticələr alınıb.

Yekun olaraq belə qənaətə gəlirik ki, araşdırılan 2005-2019-cu illər ərzində qida sənayesində əsas fondların həcminin 1% artması qida məhsullarının həcmini 0,67%, işçilərin sayının 1% artması isə məhsul həcmini 0,33% artırıb. Bu isə o deməkdir ki, təhlil edilən dövrdə məhsul istehsalının həcmi daha çox əsas fondların həcminin, beləliklə də əməyin fondla silahlanmasının artması hesabına baş verib. Əgər nəzərə alsaq ki, sənaye istehsal fondlarının strukturunda maşın və avadanlıqların xüsusi çəkisi 2005-ci ildəki 36,3%-dən 2019-cu ildə 50,5%-ə yüksəlib, onda belə nəticə çıxarmaq olar ki, keçən dövrdə innovativ amillər əsasında intensiv inkişaf meylləri artmışdır. Bundan əlavə, ekonometrik modelin araşdırmalarına əsasən elmi-texniki tərəqqi hesabına qida sənayesində məhsul istehsalının hər il orta hesabla 3% artması nəticəsi bir daha gəldiyimiz qənaətlərin doğru olmasını təsdiq edir.

**5. Azərbaycanda qida sənayesi müəssisələrinin rəqabətqabiliyyətliliyinin təmin olunması və artırılmasında qiymət mexanizmindən istifadə üzrə dövlət tənzimlənməsinin və hüquqi mexanizmlərin təkmilləşdirilməsinə yönəldilmiş təkliflər hazırlanmışdır[27].**

Mal və xidmətlər bazarında tələb və təklifə uyğun şəkildə qiymət və tariflərin öz-özünü tənzimləməsində, eləcə də tələbin həcmi ilə qiymətin arasında tarazlığa nail olunmasında əsas şərtlərdən biri

[27] *Səfərova F.M. "Aqrar sahədə rəqabətqabiliyyətliliyinin artırılmasının stimullaşdırılması mexanizmləri" Azərbayacan Respublikası Təhsil Nazirliyi Azərbaycan texniki Universiteti, 18-20 dekabr 2019-cu il "Azərbaycan və Türkiyə Universitetləri: təhsil, elm, texnologiya" I Beynəlxalq elmi-praktiki konfrans, II hissə, s. 541-545.*

rəqabətdir. Çünki, bazar şəraitində azad rəqabət mühiti təmin olunduğu halda istənilən bazar subyektinin mal və ya xidmətlərin qiymətini artırmaq istehlakçıları digər variantlar dalınca qaçmağa vadar edir. Eynicinsli məhsulun alternativ rəqib bazar subyektləri tərəfindən daha aşağı qiymətlə təklif olunması bu bazar subyektini qiymətləri bazar tələbinə uyğunlaşdırmaqla ucuz satmağa məcbur edir. Rəqabətin nəticəsi olaraq həmcins məhsullara ümumi qiymətin formalaşması baş verir və qiymətəmələgəlmənin bazar mexanizmi işə düşür.

Məhz bu baxımdan və Strateji Yol Xəritəsində göstərilən tədbirlər aspektindən yanaşmaqla, tədqiqat işində qida məhsulları istehsalı sahələrində rəqabətqabiliyyətliliyinin təmin olunmasının qiymət mexanizmi nəzərdən keçirilir və onun təkmilləşdirilməsi yolları araşdırılır.

Araşdırmalardan əldə olunan məlumatlara əsasən demək olar ki, qida emalı sənayesindəki şirkətlərin xarici müəssisələrlə qurduğu bağlantılara, texnologiyalardan istifadəyə, sertifikatların əldə edilməsinə və qrup halında bir araya gəlməsinə qarşı daha az reaksiya göstərməsi və daha çox ixraca yönəlik fəaliyyətlə məşğul olması müşahidə edilməkdədir. Bundan əlavə, onlar birbaşa və dolayı ticari əlaqələrdən də məhsuldarlıq kontekstindən yetərli qədər güclü göstəricilər əldə edirlər. Satış kontekstinə gəldikdə isə belə ehtimal etmək olar ki, beynəlxalq bazara çıxış şirkətlər üçün əhatə dairəsini artırmaq imkanı kimi çıxış edir. Mənbə hissədən danışdıqda isə fərz etmək olar ki, mütərəqqi emal avadanlığını və texnologiyalarını xarici ölkələrdən idxal etmək iqtidarında olan müəssisələr kifayət qədər əhəmiyyətli gəlir əldə edə biləcəklər. Bununla yanaşı, bu həm də onu ifadə edə bilər ki, aqrar sahə məhsulları və paketləşdirmə kimi milli məhsullar idxal edilən məhsullarla müqayisədə rəqabət qabiliyyətli deyil və ya daha az keyfiyyətlidirlər.

**Aparılmış tədqiqatın yekunu olaraq, aşağıdakı nəticələr əldə edilmiş və müəyyən təkliflər irəli sürülmüşdür:**

1. Yerli qida sənayesinin inkişafı, onun iqtisadiyyatın yüksək səmərəli və yüksək gəlirli sektoruna çevrilməsi ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsinin əsas amildir və dövlətin bütün iqtisadi sisteminin maraqlarına təsir edir. Azərbaycanın qida məhsulları istehsalında rəqabətin yüksək qiymətləndirmələrinin səbəbləri müəssisələrin xammal və texnologiyaların idxalından davamlı

asılılığıdır və böyük pərakəndə zəncirləri tez-tez xarici istehsalçıların mallarını yerləşdirməyi üstün tutmasıdır.

2. İnnovativ sahibkarlığın dəstəklənməsi üzrə dünya təcrübəsində uğurla tətbiq olunan təşkilati modellərin (sənaye şəhərciklərinin, biznes-inkubatorların və s.) yaradılması və onların effektiv fəaliyyəti məqsədilə zəruri qanunvericilik və biznes mühitinin bərqərar olması təmin olunmalıdır.

3. Rəqabət üstünlüyü demək olar ki, həmişə müəssisənin hücum xarakterli strateji fəaliyyəti ilə əldə edilir. Üstünlük yaratmaq üçün hücum strategiyasının tətbiqinin müddəti sahədə rəqabətdən asılıdır. Müəssisələrdə istehsalın səmərəliliyinin artırılmasında ən vacib amillərdən biri onların zəruri miqdarda və çeşiddə əsas fondlarla təmin edilməsi və bu fondlardan tam istifadədir. Odur ki, hər müəssisənin əsas vəzifələrindən biri kapital qoyuluşları və əsas fondların səmərəliliyini artırmaqdır.

4.Araşdırmalarda Azərbaycanda 2005-2019-cu illər ərzində qida məhsullarının istehsal həcminin əsas fondlardan və qida istehsalında məşğul olan muzdlu işçilərin sayından asılılığının Kobb-Duqlas tipli funksiya qurulmuş və qida sənayesinin gələcək inkişaf meyllərinin müəyyən edilməsi kontekstində zəruri nəticələr əldə olunmuşdur.

5. Kiçik və orta müəssisələrin rəqabətqabiliyyətliliyi problemlərinin həlli, yüksək əlavə dəyərli məhsulların ixracı, dövlət tənzimlənməsi yolu ilə Azərbaycanda sənayenin innovativ inkişaf strategiyasının həyata keçirilməsi də kiçik və orta müəssisələrdən olan klasterlərin yaradılması vasitəsilə mümkündür. Həmçinin elə bir şərait yaradılmalıdır ki, xarici şirkətlər Azərbaycanda qanunauyğun rəqabətqabiliyyətli meydan yarada biləcək dünya brendlərinin istehsalı üçün öz sərmayələrini yatıra bilsinlər. Klasterlərin yaradılması strateji əhəmiyyət daşıyır. Onlar qida məhsulu istehsalı ilə bağlı əsas sahələrin vahid inteqrasiya mexanizmi hesab edilir. Klasterlərin formalaşması bir-birinə bağlı sahə maraqlarını nəzərə alan və istehsalın rəqabət qabiliyyətini artıracaq qarşılıqlı faydalı fəaliyyətini stimullaşdıran qiymət mexanizminin təkmilləşdirilməsini nəzərdə tutur. Rəqabətqabiliyyətli qida sənayesi bütövlükdə sənayenin inkişafına yeni impuls verəcək klasteryaradıcı sahənin rəqabətqabiliyyətliliyinin artırılmasını stimullaşdıracaq.

6. Azərbaycan hazır məhsulların, ilk növbədə, ərzaq ixracının payını artıra bilmir. Ölkədə xammal yönümlü ixrac modeli yaradılmışdır. Bərpa olunmayan resursların satışı ilə bağlı danışıqlara baxmayaraq, karbohidrogenlərin ixracı xarici ticarət dövriyyəsinin əsas mənbəyi olaraq qalır və idxalın artmasına səbəb olur. Eyni zamanda, məhdud daxili bazar şəraitində, daha çox müəssisə xarici iqtisadi fəaliyyətə keçməyə məcburdur. Təcrübə göstərir ki, Azərbaycan müəssisələrinin əksəriyyəti aktiv rəqabət mübarizəsi aparmağa hazır deyil. Nəticədə, sənaye belə çətin bir vəziyyətdə qalıb ki, müəssisələrin rəqabət mövqeyini gücləndirməklə bağlı hər hansı ciddi yeniliklər baş verməyib. Bununla belə, çətin iqtisadi vəziyyətdən çıxış yolu yalnız istehlakçıların ehtiyaclarına yönəldilmiş rəqabətqabiliyyətli istehsalın yaradılmasında ola bilər. Bu mənada rəqabət qabiliyyəti yerli müəssisələrin salamatlığının mühüm şərtidir.

7. Tədqiqat Azərbaycan iqtisadiyyatında rəqabət münasibətlərinin inkişafı və gücləndirilməsi üçün aşağıdakı tövsiyələri hazırlamağa imkan verir:

- Azərbaycanda rəqabət qanunvericiliyinin təkmilləşdirilməsi lazımdır;
- ayrı-ayrı fəaliyyət növləri üzrə lisenziyalaşdırma sisteminin daha da təkmilləşdirilməsi yolu ilə inzibati maneələrin səviyyəsinin azaldılması üzrə tədbirlərin gücləndirilməsi;
- potensial rəqabətli sahələrdə qiymət rəqabətinin inkişafını intensivləşdirmək;
- iqtisadi fəaliyyəti stimullaşdırmaq, məhsul bolluğu yaratmaq, daxili istehsalı artırmaq, idxaləvəzləyici məhsulların istehsalını təşkil etmək;
- sahibkarlara və şirkətlərə daha münbit rəqabət mühiti yaratmaqla, idxal məhsullarından vergiləri götürmək, vergi rüsumlarını azaltmaq;
- sahələrdə (ilk növbədə sənaye və kənd təsərrüfatında) qiymət disbalansının aradan qaldırılmasını sürətləndirmək, ayrı-ayrı təsərrüfat subyektləri və ya təsərrüfat subyektləri qrupları üçün əsassız qiymət stimullarının azaldılması və həyata keçirilməsi, rəqabət mexanizmlərinin inkişafında dövlətin fəaliyyətinə minimal müdaxilə tələb edən klasterlərin yaradılmasına və inkişafına kömək edən digər tədbirlər.

8. Mikro, kiçik və orta sahibkarlıq subyektlərinin əsas problemlərindən biri müstəqil satış-bölgü sistemlərinin olmamasıdır. Bu sahibkarlar istehsal etdikləri məhsulları satmaq üçün əsasən iri satış-bölgü sistemləri olan firmalara müraciət edirlər. Bu zaman istehsalçının məhsulunu satan firma da məhsulun üzərinə öz mənfəət normasını(marjasını 30-50%) əlavə edir və nəticədə yerli məhsulların qiymətləri yüksəlir və bazarda analoji xarici(xüsusən MDB məkanından idxal olunan) rəqib məhsullarına çox yaxın qiymətə satılır ki, bu da satış həcminin aşağı olmasına, rəqabətqabiliyyətinin olmamasına və idxal məhsullarının satışının artmasına səbəb olur. Ona görə də təklif edirik ki, dövlət dəstəyi ilə bir neçə regionda (iqtisadi rayonda) fəaliyyət göstərən və eyni portfelə daxil olmayan, bir-biri ilə rəqabətə girməyən 20-30 müəssisənin məhsullarının satışını həyata keçirəcək satış-bölgü şirkəti yaradılsın və bütün ölkə miqyasında satış həyata keçirilsin.

9. Pandemiya dövründə milli iqtisadiyyatın makro, mezo səviyyəli strukturlarında iqtisadi proseslərin idarə olunması, təşkili, tənzimlənməsi və stimullaşdırılmasının mövcud mexanizimlərinin, qarşılıqlı əlaqə və asılılıqlarını kəskin deformasıyaya uğratdı. Eyni zamanda dissertasiya işində mövcud vəziyyətin təhlili və diaqnostikası belə bir qəti qənaətə gəlməyə əsas verir ki, post pandemiya iqtisadiyyatı şəraieində qabaqcıl dünya təcrübəsi, milli reallıqlar və potensial nəzərə alınaraq rəqabətqabilliyyətliliyinin yüksəldilməsi ilə bağlı tədqiqatdan əldə olunan nəticələrin, irəli sürülən təklif və tövsiyələrin aktuallığı zənnimizcə kəskin artacaqdır.

**Tədqiqatın əsas məzmunu müəllifin çap edilmiş aşağıdakı elmi əsərlərində öz əksini tapmışdır:**


1. Səfərova F.M. "Qiymət siyasəti milli iqtisadiyyatın tənzimlənmə vasitəsi kimi" İqtisad elmləri: nəzəriyyə və praktika j., № 1, Bakı 2011, s. 169-175.
2. Səfərova F.M. "Müasir dövrdə dövlətin qiymət siyasətinin formalaşmasının konseptual əsasları və prioritetləri" "Milli iqtisadiyyatın inkişafı və səmərəliliyinin yüksəldilməsi problemi”nə həsr edilmiş Beynəlxalq Konfransın materialları, Bakı 2012, s. 47-50.
3. Səfərova F.M."Daşınmaz əmlak bazarında qiymətləndirmə

fəaliyyətinin tənzimlənmə problemi" Gənc tədqiqatcıların I Beynəlxalq Elmi Konfransı, Bakı 2013, s. 21-22.

4. Səfərova F.M. "Beynəlxalq təcrübədə qiymətin əsaslandırılması prosesinə rəqabətin təsirinin qiymətləndirilməsi" AMEA-nın “Xəbərləri” İqtisadiyyat seriyası,ü Bakı 2014, №2, s. 81-85.
5. Səfərova F.M. "Rəqabət strategiyasının secilməsində qiymət mexanizmindən istifadənin nəzəri-metodoloji əsaslarının tədqiqi" AMEA-nın “İqtisadiyyat institunun elmi əsərləri” Bakı 2014, №3, s. 49-55.
6. Səfərova F.M. “Qiymətləndirmə fəaliyyətinin dövlət tənzimlənməsinin rəqabət qabiliyyətinin artırılması amili kimi” Gənc tədqiqatcıların III Beynəlxalq Elmi Konfransı, Bakı 2015, s. 563-565.
7. Сафарова Ф.М. "Цен образующие факторы конкурентоспособности Азербайджанской промышленности во внешней торговле» «Экономика и предпринимательство» журнал № 8, Москва, 2015, с. 173-175.
8. Səfərova F.M. “Təbii inhisar subyektlərində qiymətlərin tənzimlənməsi təcrübəsi və onun təkmilləşdirilməsi yolları” Azərbaycan Kooperasiya Universiteti “Elmi-praktiki” jurnal № 4 – 2015, s. 97-105.
9. Səfərova F.M. “Qiymətin əsaslandırılması prosesinə rəqabətin təsirinin müəyyən edilməsi məsələləri” Doktorantları və gənc tədqiqatçıların XIX respublika elmi konfransının materialları Bakı 2015, s. 202-204.
10. Səfərova F.M. “Azərbaycanda rəqabətqabiliyyətli ərzaq məhsulları üzrə istehsal potensialından istifadənin genişləndirilməsi yolları” AMEA-nın İqtisadiyyat İnstitutunun 60 illik yubileyinə həsr edilmiş “İqtisadi artım və ictimai rifah” Beynəlxalq elmi-praktiki konfransın materialları. Bakı 2018, s.541-545.
11. Сафарова Ф.М. “*Ценообразующие факторы конкурентоспособности азербайджанской промышленности во внешней торговле*” Министерство Образования Украины, Хмельницкий национальный университет, факультет «Экономики и управления» Финансовые аспекты развития экономики Украины: теория, методология, практика.

Сборник молодых ученых Хмельницкий, 2019, с. 91-94.
12. Safarova F.M. “Effective Utilization of Scientific-Technical and Innovative Potential as an Important Factor of the Development of the Non-Oil Sector”. 5 Th International Conference On Lifelong Education And Leadership For All 9-11 July, 2019 Baku, Azerbaijan Abstract Book, Online Publication: September 19, 2019 ICLEL Publication: ICLEL Conferences Sakarya University Faculty of Education 54300 Sakarya, TURKEY, p. 1036-1039.
13. Safarova F.M. “The Provision of Education: Research and Innovation Unity is an Important Factor in Raising the Competitiveness of the National Economy” 5 Th International Conference On Lifelong Education And Leadership For All 9-11 July, 2019 Baku, Azerbaijan Abstract Book, Online Publication: September 19, 2019 ICLEL Publication: ICLEL Conferences Sakarya University Faculty of Education 54300 Sakarya, TURKEY, p. 808-811.
14. Səfərova F.M. “Aqrar sahədə rəqabətqabiliyyətliliyinin artırılmasının stimullaşdırılması mexanizmləri” Azərbayacan Respublikası Təhsil Nazirliyi Azərbaycan texniki Universiteti, 18-20 dekabr 2019-cu il “Azərbaycan və Türkiyə Universitetləri: təhsil, elm, texnologiya” I Beynəlxalq elmi-praktiki konfrans, II hissə, s. 541-545.
15. Safarova F.M. “OPPORTUNITIES AND PRIORITIES OF AZERBAIJAN'S TRANSITION TO THE CONCEPT OF SUSTAINABLE DEVELOPMENT” 238 -.246 55th International Scientific Conference on Economic and Social Development Development Book of Proceedings Vol. ¾, p. 211-218



Dissertasiyanın müdafiəsi 29 aprel 2022-ci il tarixində saat $13^{00}$-da Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin nəzdində fəaliyyət göstərən FD 2.22 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: 16/21 Azadlıq prospekti, AZ 1010, Bakı, Azərbaycan

Dissertasiya ilə Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 28 mart 2022-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 28.03.2022. Kağızın formatı: 60x84 1/16.
Sifariş 05/06. Həcmi 1 ç.v. (48.098 işarə)
Ofset kağızı №1. Tiraj 100.

“AA – Poliqraf” istehsalat-kommersiya birliyində
hazır diopozitivlərdən istifadə olunmaqla çap edilmişdir.
Əlaqə üçün: (055)201-2809 email: capevi@internet.ru